# Molla Kərim Kəşfi və onun divanı



**Paşa ƏLİOĞLU**

*filologiya üzrə elmlər doktoru*

***XIX əsrin birinci yarısında, indiki Oğuz bölgəsinin Vardanlı kəndində dünyaya gəlmiş, "Kəşfi" təxəllüsü ilə şeirlər yazmış Molla Kərim barədə ilk dəfə görkəmli ədəbiyyatşünas Salman Mümtaz "El şairləri" kitabında məlumat vermişdir. Tədqiqatçı şairin "Çaynamə" və "Suxtalar" adlı iki şerinin mətnini vermişdir. Bu şeirlərdə onun təxəllüsü "Kəşfi Vardani" və "Molla Kəşfi" kimi gedir. Salman Mümtaz "El şairləri" kitabında Vardan kəndindən olan, təxminən eyni zamanda yaşamış, "Mücrim Kərim", "Kərim", "Mücrim", təxəllüsləri ilə şeirlər yazmış başqa bir şairin müxəmməs, qoşma və təcnislərini də vermişdir. Sonrakı illərdə Mücrim Kərimin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanan əlyazmalarını - qoşma, təcnis və bayatılarını, "Sünbülüstan" adlı kiçik həcmli divanını tədqiq və nəşr etdirmiş professor Əzizə Cəfərzadə belə bir ehtimal irəli sürmüşdür ki, Molla Kərim Kəşfi ilə Mücrim Kərim eyni şəxsdir. Fikrini sübut etmək üçün tədqiqatçı aşağıdakı dəlilləri gətirmişdir: Hər iki şair təxminən eyni vaxtda - XIX əsrin əvvəllərində, eyni kənddə - Vardanlıda dünyaya gəlmişdir. Hər iki şəxsin adı Kərimdir. Hər iki şəxs səyahətlər etmişdir. Lakin Əzizə xanım fərqləri də göstərmişdir. Mücrim Kərimin şeirləri ilə Molla Kərim Kəşfinin şeirləri arasında nəzərə çarpan fərqlər vardır. Mücrim təxəllüslü şairin həm klassik, həm xalq şeri üslubunda şeirləri olduğu halda, Kəşfinin bir dənə də olsa qoşma və gəraylısına rast gəlmək mümkün deyil.***

Bu iki şairin fərqli şəxs olmalarını sübut üçün başqa bir ciddi dəlil də vardır. Ə.Cəfəradə bu məsələni tədqiq edərkən Molla Kərim Kəşfinin müxtəlif cünglərdə rast gəldiyi şeirlərindən istifadə etmişdi. Onun lirik şeirlər toplusu - divanından xəbərsiz idi. Hazırda onun Əlyazmalar İnstitutunda saxlanan divanından istifadə edib bəzi nəticələrə gəlmək olar. Bu əlyazmada farsca 1 məsnəvi, Azərbaycan dilində 277 qəzəl, 25 rübai, 4 müxəmməs vardır. Mətn şikəstə - nəstəliq xəttilə, qara rəngli mürəkkəblə, XIX əsrə aid Rusiya istehsalı olan kağıza köçürülmüşdür. Divanın içində 1829, 1830-cu illərə aid bəzi məktub və qeydlər vardır. Şeirlərdə müəllifin "Kəşfi Kərim", "Kəşfi", "Molla Kəşfi" təxəllüslərindən istifadə etdiyini görürük. Üzərindəki yazıdan görünür ki, əlyazma vaxtı ilə tədqiqatçı Həbibulla Səmədzadəyə məxsus olmuşdur. Bu divandakı şeirləri Mücrim Kərimin "Sünbülüstan" divançasındakı şeirlərlə müqayisə etdik. Üst-üstə düşən əsərə rast gəlmədik. Mücrim Kərimin Əlyazmalar İnstitutunda saxlanan divanı avtoqrafdır, müəllif tərəfindən köçürülmüşdür. Naxışlı sarı meşin cildə tutulmuş bu kiçik kitab 121 vərəqdən ibarətdir. Ağ-saya kağızları qara mürəkkəblə yazılmış şeirlərin çoxu qırmızı mürəkkəblə çərçivələnmiş, bəzi səhifərdə nəbati naxışlar çəkilmişdir.

Qeyd etdiyimiz kimi, Mücrim Kərimin əsərlərində şifahi xalq ədəbiyyatına, aşıq şerinə meyl, M.P.Vaqifin təsiri özünü qabarıq göstərir. Molla Kərim Kəşfi isə, divanından gördüyümüz kimi, sırf klassik Şərq şeri formalarında əsər yazan şair olmuşdur. Kəşfinin əsərlərində qəzəl dilinin sadələşdirilməsinə meyl də özünü göstərməkdədir.

Fikrimizcə, bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, eyni yerdən - Vardanlı kəndindən olmalarına və təxminən eyni zamanda yaşamalarına, adlarında "Kərim" olduğuna baxmayaraq, Salman Mümtaz haqlı olaraq "El şairləri" kitabında onları fərqləndirmişdir. Mücrim Kərim Vardani ilə Molla Kərim Kəşfi Vardani müxtəlif adamlardır. Mücrim Kərimin kitabı hələ sovet dövründə işıq üzü görmüşsə, Molla Kərimin divanı öz nəşrini gözləyir. (Əlyazmlar İnstitutunun əməkdaşı filologiya üzrə fəlsəfə doktoru Nailə Mustafayeva hazırda bu işlə məşğuldur). Molla Kərim Kəşfinin bir neçə şerini oxucuların diqqətinə çatdırırıq.